***Şövkət Horovlu***

***Xocalı harayı***

Bir anayam, sinəm dağlı,
Bir qalayam, yolum bağlı,
Xocalıyam, el soraqlı,
Xəzan olub güllü yazım,
Geri qayıt, oğlum, qızım.

Gəl halımı bir gör özün,
Qana batıb dərəm-düzüm,
Qalmayıbdır məndə dözüm,
Göydə sönüb bəxt ulduzum.
Geri qayıt, oğlum, qızım.

Səsimə bir səs ver, bala,
Gözüm qalıb dola-dola,
Qisas yerdə qoyma qala.
Gözdə qalmasın murazım,
Geri qayıt, oğlum, qızım.

Harayımı eşit, qardaş,
Dön şimşəyə, dağları aş,
Gir meydana, başla savaş.
Qoy ölməsin bu son arzum,
Geri qayıt, oğlum, qızım.

***Horovlu Ş. Xocalı harayı : şeir // Savalan. – 2011. – 1-3 mart. –S.7.***